# Bakıdakı Müqəddəs Məryəm Katolik Kilsəsində və Avropa Yəhudiləri Sinaqoqunda Vətən müharibəsi şəhidlərinin anım mərasimi keçirilib





Dekabrın 4-də Bakıdakı Müqəddəs Məryəm Katolik Kilsəsində Vətən müharibəsi şəhidlərinin anım mərasimi keçirilib, Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəmanların xatirəsi yad edilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycanda Katolik kilsəsinin apostol prefekturasının ordinarisi Vladimir Feketenin iştirakı ilə keçirilən mərasimdə dini ayinlər icra edilib, şəhidlərin ruhuna dualar oxunub.

Vladimir Fekete jurnalistlərə bildirib ki, bu kədərli, eyni zamanda, əlamətdar gündə müsəlmanlar, xristianlar, yəhudilər Vətən müharibəsi şəhidlərinin xatirəsini birgə anırlar.

"Biz Allahın xeyir-duası ilə əta olunmuş birlik və həmrəyliyimizi gələcək nəsillər üçün qoruyub saxlamağa borcluyuq. Katolik kilsəsi Azərbaycanın hakimiyyət orqanlarına, şəxsən Prezident İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya, eləcə də bütün dini icmaların liderlərinə xalqın birliyinin qorunması və möhkəmləndirilməsində müstəsna roluna görə minnətdardır. Biz əminik ki, son söz ölümün deyil, həyatın olacaq", - deyə Vladimir Fekete vurğulayıb.

Katolik kilsəsinin apostol prefekturasının ordinarisi Azərbaycan xalqına sülh və rifah arzulayıb.

* * *

Dekabrın 4-də Bakıda Avropa Yəhudiləri Sinaqoqunda Vətən müharibəsi şəhidlərinin anım mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, mərasimdə Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş qəhrəmanlarımızın ruhu anılıb.

Azərbaycanın aşkenazi yəhudilərinin baş ravvini Şneor Seqalın iştirakı ilə dini ayinlər yerinə yetirilib, şəhidlərin ruhuna dualar oxunub.

Şneor Seqal bildirib ki, biz şəhidlərimizin xatirəsi üçün bugünkü ibadətlə kifayətlənməməliyik. O deyib: "Onlar bizə Qələbə bəxş etdilər, torpaqlarımızı işğaldan azad etdilər və biz oraya qayıda bilərik. Etnik və dini mənsubiyyətindən asılı olmayaraq, hər bir şəhidin xatirəsi bizim üçün mühümdür".

Öz növbəsində, icmanın rəhbəri Aleksandr Şarovski deyib: "Bu gün biz torpaqlarımızın azadlığı uğrunda həyatını qurban verən əsgərlərimizin xatirəsi qarşısında ailələrimizlə, yəhudi qardaşlarımızla birgə baş əyirik. Prezident İlham Əliyevin rəhbərliyi altında bizim rəşadətli ordumuz işğalçıları torpaqlarımızdan qovdu. Bütün ölkə Vətənimizin azadlığı uğrunda canından keçən övladlarımızın, oğullarımızın ruhu qarşısında baş əyir".

Azərbaycan.- 2020.- 5 dekabr.S. 6.